# I BÖLMƏ.
# MALİYYƏ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**UOT 336.71**

***Elmira Əli qızı BALAYEVA***
***i.e.n., dosent, AKU***

***Kərim Qurban oğlu QURBANOV***
***magistrant***

## MALİYYƏ NƏZARƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN TƏŞKİLATİ ASPEKTLƏRİ: TƏHLÜKƏSİZLİK VƏ TƏCRÜBƏLƏRİN TƏHLİLİ

***Xülasə***

**Tədqiqatın məqsədi** - iqtisadi təhlükəsizlik müstəvisində təsərrüfat fəaliyyətinə maliyyə nəzarətinin müxtəlif aspektlərdə tədqiqi, həmin nəzarətin formalaşması və inkişafının təşkilati aspektlərinin araşdırılması, xarici ölkələrin təcrübəsinin qiymətləndirilməsidir.

**Tədqiqatın metodologiyası** - müqayisəli təhlil, sintez, məntiqi ümumiləşdirmə.

**Tədqiqatın nəticələri** - iqtisadi təhlükəsizlik mövqeyindən maliyyə nəzarətinin səmərəli təşkili imkanları aşkar olunmuş, onların reallaşdırılması yolları müəyyən edilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti** - əldə edilən nəticələr maliyyə nəzarəti prioritetlərinin iqtisadi təhlükəsizlik mövqeyindən əsaslandırılmasında, maliyyə resurslarından istifadəyə nəzarət tədbirlərinin işlənib hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - maliyyə nəzarəti sisteminin iqtisadi təhlükəsizlik nöqteyi-nəzərindən idarə edilməsinin təşkilati aspektləri müxtəsər surətdə xarakterizə olunmuş, qabaqcıl təcrübənin təhlili sayəsində onların yerli şəraitdə tətbiqi imkanları dəyərləndirilmişdir.

***Açar sözlər: iqtisadi təhlükəsizlik, maliyyə nəzarəti, təşkilati aspekt, müqayisə, xarici təcrübə, səmərəlilik, institusional təminat.***

Məqalədə iqtisadi təhlükəsizlik müstəvisində təsərrüfat fəaliyyətinə maliyyə nəzarəti müxtəlif aspektlərdə tədqiq olunmuşdur. Maliyyə nəzarətinin formalaşması və inkişafının təşkilati aspektlərinə xüsusi diqqət verilmişdir. Bu məqsədlə xarici ölkələrin təcrübəsi araşdırılmışdır. Tədqiqatın məqsədi maliyyənin iqtisadi təhlükəsizlik baxımından idarə edilməsi prosesində nəzarətin qabaqcıl təcrübəsindən istifadə imkanlarını və həmin imkanların reallaşdırılması yollarını müəyyən etməkdir. Müvafiq qabaqcıl hesab edilən xarici təcrübənin qısa xülasəsi və müqayisəli araşdırmalar sayəsində maliyyə nəzarətinin institusional təminatının səmərəlilik məsələlərinə münasibət bildirilmişdir. Tədqiqat prosesində abstraksiya, müqayisəli təhlil, ekspert qiymətləndirilməsi və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

### *Giriş*

Maliyyə təhlükəsizliyi dedikdə, maliyyə sisteminin səmərəli fəaliyyəti ilə yanaşı, milli iqtisadiyyatın inkişafının maliyyə-iqtisadi mexanizminin bütün həlqələrində təhlükəsizliyin təmin edilməsi nəzərdə tutulur. Maliyyə nəzarətinin mükəmməlliyi, həlledici dərəcədə onun təşkilati təminatından asılıdır. Bu məqam tədqiqatçılar tərəfindən kifayət qədər araşdırılmamışdır. Xüsusilə maliyyə nəzarəti xidməti və maliyyə təhlükəsizliyi məsələlərinə birgə yanaşmalar, ölkənin maliyyə

ədəbiyyatında olduqca azdır. Odur ki, maliyyə nəzarətinin təşkilati təminatının təkmilləşdirilməsi üzrə qabaqcıl təcrübənin, xüsusilə maliyyə təhlükəsizliyi aspektində təhlili aktual hesab edilməlidir.

**Maliyyənin iqtisadi təhlükəsizlik baxımından idarə edilməsi və nəzarət**

Maliyyə təhlükəsizliyinin təmin edilməsi aşağıdakı maliyyə problemlərinin həlli nəticəsində mümkündür: ənənəvi ixrac sahələri ilə yanaşı, qeyri-ənənəvi sahələrin də pul vəsaitləri ilə təminatındakı çətinliklərin aradan qaldırılması; pul-kredit və maliyyə alətlərinin öz aralarında lazımi səviyyədə koordinasiya edilməsi, belə ki, uzunmüddətli investisiya qoyuluşları planlaşdırılarkən pul kütləsinin həcmi, xarici və daxili bazarın konyunkturu diqqət mərkəzində olmalıdır; maliyyə-kredit sisteminin, əsasən milli valyutanın tədavülü sisteminə əsaslanması; investisiya qoyuluşları proqnozlaşdırılarkən daxili investorların fəaliyyətinin düzgün müəyyənləsdirilməsi; əmtəə və maliyyə bazarlarını, Azərbaycanın xaricdəki investisiya qoyuluşlarını, ölkəmizdə xarici investisiyanın dövlət tənzimlənməsini xarakterizə edən göstəricilər sisteminin işlənib hazırlanması; xarici ticarət və valyuta nəzarətinin şəffaf sisteminin işlənib hazırlanması; təsərrüfat subyektlərinin fəaliyyət sahələrinə maliyyə nəzarətinin lazımi səviyyədə təşkil edilməsi; makroiqtisadi tənzimlənmə ilə yanaşı iqtisadi siyasətdə mikro tənzimlənmənin kifayət qədər nəzərə alınması və s.

İqtisadi tarix göstərir ki, iqtisadi böhranlar bazar iqtisadiyyatının müşayiətçisidir. Odur ki, maliyyə proqramları, adətən məcmu daxili tələb və təklif arasında yaranan bərabərsizliyi aradan qaldırmaq məqsədinə tabe edilir. Məhz belə vəziyyət maliyyənin makro və mikro səviyyələrdə problemlərini gündəliyə çıxarır.Məcmu tələb və təklif arasında qeyri-bərabərlik inflyasiya, istehsalın tənəzzülü problemlərinin nəticəsidir. “Bu əsas göstəriciləri təhlil etmişik və qəti şəkildə deyə bilərik ki, indi müstəqil Azərbaycan Respublikası o ölkələrin sırasına daxildir ki, onlar bütünlüklə öz iqtisadi təhlükəsizliyini təmin edirlər” [1, s. 846].

Maliyyənin iqtisadi təhlükəsizlik baxımından idarə edilməsi mexanizmi- təsərrüfat obyektlərinə təsiri maliyyə vasitəsilə reallaşdırılan üsulların məcmusu kimi qəbul edilir. İdarəetmənin bu növü, təbii ki, iqtisadi sistemin ümumi tələbləri mühitində təşəkkül tapır. İdarəetmə prosesində maliyyə və maliyyənin idarə edilməsi məsələləri qarşılıqlı əlaqəlidir. İstehsal-kommersiya fəaliyyətində, məhsulun satışında və pul vəsaitlərinin bölüşdürülməsində müstəqillik, müəssisənin dövlət qarşısında öhdəliklərini yerinə yetirməsi zərurətini aradan qaldırmır, əksinə, bazar mühitinin maliyyə intizamına dair tələbləri daha ciddidir.

Maliyyə resursları müəssisənin ixtiyarında olan maliyyə öhdəliklərinin yerinə yetirilməsi, istehsalın miqyasının genişləndirilməsi və işçilərin həvəsləndirilməsi üzrə xərclərin icrası üçün ayrılmış pul gəlirləridir. Mənsubiyyətdən asılı olmayaraq istənilən müəssisə maliyyə resurslarını artırmağa çalışır. Maliyyə resurslarının miqdarı konkret müəssisənin ahəngdar fəaliyyətini və maliyyə sabitliyini şərtləndirən mühüm amildir.

Maliyyə ehtiyatları, müəssisələrin, birliklərin, firmaların sərəncamında olan, yaranan əlavə xərclərin ödənilməsi, müvəqqəti maliyyə çətinliklərinin aradan qaldırılması və normal fəaliyyət şəraitinin təmin edilməsi üçün nəzərdə tutulan pul vəsaitidir [2, s. 64]. Maliyyə resursları, ilk növbədə şəxsi vəsaitlər, ikincisi maliyyə bazarında ehtiyatların səfərbərliyə alınması və yenidənbölgü qaydasında bank-maliyyə sisteminə daxilolmalar hesabına həyata keçirilir.

Ənənəvi büdcə siyasəti bir sıra sadələşmələri qəbul etməli olur. Belə ki, məcmu məhsul və milli gəlir əmək təklifinin təsirinə məruz qalır. Nəzərə almaq lazımdır ki, yığım və investisiyalar arasında faiz nisbəti milli gəlirin normalarına uyğun müəyyən edilir. Beləliklə, pul təklifinin artımı qiymət normasını yüksəldir. Bununla belə, bir çox müəlliflər pul təklifi artımını iqtisadi tarazlıq üçün ciddi təhlükə hesab etmirlər. Sözügedən normaların dəyişməsi mühitində belə dövlət büdcəsi tarazlığının qorunması, xüsusilə islahatlar dövründə mühüm əhəmiyyətə malikdir.

Yeri gəlmişkən bir məsələni də qeyd edək. Dövlət xərclərinə uyğun vergilərin yığılması şəraitində milli gəlirə təsir etmək üçün əməyin təklif və tələbini məcmu istehsalı dəyişdirəcək səviyyəyə çatdırmaq zəruridir. Hər bir dövrdə həll edilməli əsas məsələlərdən biri məşğulluq səviyyəsinin məqbul həddinin təmin edilməsidir. C.Keyns böyük depressiyanın nəticələrini təhlil edərək

əməkhaqqı və ya qiymətlərin elastikliyinin məşğulluğun lazımi səviyyəsini təmin etmək iqtidarında olmadığı nəticəsinə gəlmişdir. C.Keynsə görə, bu halda müvafiq maliyyə siyasətinin həyata keçirilməsi həlledici əhəmiyyətə malikdir [3].

Qeyd edək ki, müvafiq maliyyə siyasəti dedikdə, məcmu tələb və təklif tarazlığına yönələn siyasi xətt başa düşülməlidir. Adətən, iqtisadi sistemin öz hesabına gəldiyi tarazlıq, ən aşağı səviyyəli tarazlıq ola bilər. Hesab edirlər ki, buna səbəb faiz dərəcəsinin və əməkhaqqının bazar iqtisadiyyatı şəraitində gözlənildiyi qədər elastik olmamasıdır.

İqtisadi təhlükəsizliyin təminatı vasitəsi və ölkənin maliyyə-kredit sisteminin normal fəaliyyətinin zəruri şərti olan maliyyə nəzarəti dövlətin mühüm funksiyalarından biri kimi xüsusi diqqətə layiqdir. Bazar iqtisadiyyatının formalaşdığı ölkələrdə maliyyə nəzarətinin səmərəli forma və metodlarının reallaşma mexanizminin seçilməsi həyati əhəmiyyət kəsb edir. Maliyyə nəzarəti rentabelli fəaliyyət hesab olunur.

“Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələrdə iqtisadi inkişaf proqramları işlənib hazırlanarkən, həmin proqramın tərkibinə nəzarət fəaliyyəti ilə bağlı xərclər də daxil edilir. Bu isə real həyatda həmişə özünü doğruldur. Belə ki, maliyyə nəzarəti xarici ölkələrdə həmişə rentabellidir. ABŞ-da nəzarət fəaliyyəti ilə məşğul olan orqanların sərf etdiyi hər bir dollar əvəzində büdcəyə əlavə olaraq 5 dollar, Böyük Britaniyada isə müvafiq olaraq, hər bir funt-sterlinq əvəzində 13 funt-sterlinq daxil olur” [4, s. 360].

**Xarici təcrübənin qısa xülasəsi**

Bazar münasibətlərinin təşəkkülü maliyyə nəzarətinin təşkilində beynəlxalq təcrübənin tənqidi qiymətləndirilməsini tələb edir. Bu baxımdan 1921 - ci ildə ABŞ-da yaradılmış və başlıca maliyyə nəzarəti orqanı olan Baş Nəzarət-Maliyyə idarəsinin (BNMİ) təcrübəsi diqqətəlayiqdir. BNMİ qanunverici orqana tabe olmaqla, demək olar ki, bütün nazirlik və idarələrin maliyyə sənədlərini araşdırmaq imkanına malikdir. Konqresin palata və komissiyalarının, ayrı-ayrı konqresmenlərin tapşırığı ilə BNMİ aşağıdakı işləri həyata keçirə bilər: dövlət proqramlarının reallaşmasının nəticələrinin qiymətləndirilməsi; federal idarələrin fəaliyyətinin qiymətləndirilməsi; məhsullara qoyulan qiymətlərin əsaslandırılma dərəcəsinin xüsusi tədqiq edilməsi və yoxlanması; Müdafiə Nazirliyinin müqavilələrinin maliyyə-iqtisadi aspektlərinin yoxlanması və s.

Əsas nəzarət orqanlarından sayılan İnzibati-Büdcə idarəsi (IBI) (adətən, BNMİ-dən sonra maliyyə nəzarətini həyata keçirən ikinci qurum hesab olunur) ABŞ prezidentinin icra orqanının tərkibinə daxildir. ABŞ-ın maliyyə-iqtisadi həyatında əhəmiyyətli mövqeyə malik olan bu qurumun əsas funksiyalarına aşağıdakılar aiddir: maliyyə və iqtisadi siyasət məsələləri üzrə tövsiyələrin hazırlanması və ölkə prezidentinə təqdim olunması; büdcə layihəsinin hazırlanması; büdcənin icrasına nəzarət; icra hakimiyyətinin təşkilati və idarəetmə strukturlarının fəaliyyət səmərəliliyinin qiymətləndirilməsi; federal proqramların həyata keçirilməsi üzərində nəzarət; nazirlik və idarələrin fəaliyyətinin koordinasiyası; konqresdə qəbul edilən qanun layihələri üzrə tövsiyələrin hazırlanması; ölkə prezidentinin müvafiiq əmrləri və normativ aktları üzrə tövsiyələrin hazırlanması; dövlət müəssisələrinin fəaliyyəti barədə prezidentin məlumatlandırılması; ştatlarda və yerlərdə qəbul edilmiş qanunvericilik aktlarının icmalı və s.

Fransanın Hesablama Palatasına büdcə icrasına nəzarət, büdcə-maliyyə pozulmaları və əyintilərinin aşkar edilməsi, onların aradan qaldırılması səlahiyyəti verilmişdir. Avropanın bu ölkəsində ən qədim dövlət təsisatlarından olan Hesablama Palatası məhkəmə instansiyasıdır. Fransada Hesablama Palatası dövlət maliyyəsi üzərində nəzarəti həyata keçirən qurumdur. Kommunalarda, departamentlərdə və regionlarda dövlət müəssisələrinin maliyyə fəaliyyətinə regional hesablama palataları tərəfindən nəzarət edilir. Bu palataların qərarları barədə Fransa Hesablama Palatasına şikayət etmək olar. Fransa Hesablama Palatası inzibati institutların maliyyə fəaliyyətinə nəzarət edir, onların dövlət maliyyəsinə ziyan verən səhv və nöqsanlarını aşkar edir.

Fransa Hesablama Palatası o cümlədən, aşağıdakıları yoxlayır: idarə edilməsi dövlət qurumlarına və digər rəsmi hüquqi şəxslərə həvalə edilmiş kreditlərin və fondların istifadəsi vəziyyəti;

sosial təminat sahəsində müxtəlif qurumların fəaliyyəti; dövlət müəssisələrinin və onların filiallarının hesabları; bir sıra hallarda, dövlətdən maliyyə yardımı alan özəl hüquqi şəxslərin hesabları.

Fransada dövlət maliyyə nəzarətinin digər orqanları Baş Maliyyə Müfəttişliyi və Baş İnzibati Müfəttişlikdir. Onların funksiyalarına aşağıdakılar aid edilir:

- Daxili İşlər Nazirliyinin tabeliyində olan heyət, xidmət, təsisat və orqanların fəaliyyətinə nəzarət;
- prefektlərin tabeliyində olan qurumların fəaliyyətinə nəzarət.

Böyük Britaniyada parlamentin adından büdcə-maliyyə proseslərinə nəzarəti həyata keçirən orqan - Milli Nəzarət-Təftiş İdarəsidir (MNTİ). Bu orqan demək olar ki, dövlət səviyyəsində həyata keçirilən maliyyə nəzarəti ilə əlaqədar əsas işləri icra edir. Böyük Britaniyada qanunverici orqanın maliyyə nəzarəti funksiyaları kifayət qədər miqyaslı olub, dəqiq müəyyənləşdirilmişdir.

Bütün Qərb ölkələrində nəzarət üsullarının təkmilləsdirilməsi ilə yanaşı informasiyanın kompleks kompüter təhlili sistemi yaradılmışdır. Bu sistemin tətbiqi fiskal idarələrin əməkdaşları tərəfindən yerinə yetirilən işlərin həcminin azalmasına və işin səmərəliliyinin yüksəlməsinə kömək edir.

Almaniya Federativ Respublikasında da büdcənin icrası üzrə hesabat və icraya nəzarət Maliyyə Nazirliyinə həvalə edilmişdir. Nazirlik büdcənin müxtəlif xərc maddələri və müəssisələr üzrə vəsaitlərin sərf olunmasına və mədaxil prosesinə nəzarət edir. Bunun üçün kassa mədaxili və məsrəflər üzrə hesabatlar hazırlanır. Büdcənin icrası barədə hesabat parlamentin təsdiqinə verilir.

Yaponiyada büdcənin icrası Maliyyə Nazirliyinə, bir sıra digər nazirlik və idarələrə həvalə olunur. Büdcəyə kassa xidməti Yaponiya Bankı tərəfindən həyata keçirilir. Təsdiq olunmuş ayırmaların xərclənməsinə nəzarət rüblük hesabatların hazırlanması şəklində başlayır. Həmin hesabat “Təftiş bürosunda» yoxlanılır, hökumət tərəfindən bəyənildikdən sonra parlamentin təsdiqinə verilir. Yerli büdcələrin və yerli hakimiyyət orqanlarının xüsusi hesablarının tərtibi, təsdiqi və icrası analoji qaydada baş verir. Maliyyə ili başa çatdıqdan sonra icra edilən büdcə üzrə bütün əməliyyatlar dayandırılır. İcranın nəticələri barədə müvafiq səviyyələrə təqdim olunmaq üçün məruzələr hazırlanır.

Asiya ölkələrində dövlətin maliyyə nəzarəti funksiyalarının icrasının təşkilati strukturunda özünəməxsusluqlar diqqəti cəlb edir [5]. Bu baxımdan Koreya Respublikasının təcrübəsi diqqətəlayiqdir. Belə ki, bu ölkədə Maliyyə Nəzarəti və Müfəttişliyi idarəsi ali nəzarət orqanı kimi bilavasitə prezidentə tabedir. Sözü gedən idarənin əsas vəzifəsi Koreya Respublikasının dövlət büdcəsinin vəsaitləri hesabına maliyyələşdirilən 25 nazirlik və idarənin, onlara tabe olan 4 mindən artıq təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirməkdir.

ABŞ, Kanada, Qərbi Avropa ölkələri, Yaponiya və digər inkişaf etmiş ölkələrdə sosial-iqtisadi inkişaf proqramları işlənib hazırlanarkən, həmin proqramların tərkibinə nəzarət fəaliyyəti, o cümlədən maliyyə nəzarəti ilə bağlı məsələlərin həlli ilə bağlı xərclər daxil edilir. Beynəlxalq təcrübədən göründüyü kimi, belə yanaşma özünü, demək olar ki, bütün hallarda doğruldur.

Maliyyə nəzarətini həyata keçirən orqanların kadrlarına qarşı ən yüksək tələblər qoyulması inkişaf etmiş ölkələrin çoxillik təcrübəsinin xarakterik cəhətidir. Sözügedən fəaliyyətlə məşğul olan orqanların idarəetmə aparatlarının təşkili zamanı ali kateqoriyalı mütəxəssislərə, elmi işçilərə üstünlük verilir.

ABŞ-da Baş Nəzarət-Maliyyə İdarəsinin işçilərinin dörddə üçünü magistrlər və elmlər doktorları təşkil edirlər. Kanada və Qərbi Avropa ölkələrinin bir çoxunda (Almaniya, Fransa, Böyük Britaniya, və s.) maliyyə nəzarəti fəaliyyətini həyata keçirən kadrların hazırlanması və yenidən hazırlanması ilə xüsusi akademiyalar, universitetlər, elmi-tədqiqat mərkəzləri məşğul olur.

Rusiya Federasiyasında dövlət maliyyə nəzarəti məsələləri müxtəlif təşkilatların səlahiyyətindədir [6]. Mövcud qanunvericilikdə dövlət nəzarətinin ayrı-ayrı funksiyalarını həyata keçirən qurumlar müəyyənləşdirilmişdir. Bura ilk növbədə, dövlət nəzarətinin konstitusion orqanı olan Rusiya Federasiyasının (RF) Hesablama Palatası aiddir. Daha sonra, bu funksiyaları həyata keçirən qurumlar arasında aşağıdakılar sadalanır: Rusiyanın Mərkəzi Bankı; Maliyyə Nazirliyi (Dövlət

Maliyyə Nəzarəti və Audit Departamenti və Baş Federal Xəzinədarlıq İdarəsi); Vergilər və Yığımlar üzrə Rusiya Federasiyası Nazirliyi; Dövlət Gömrük Komitəsi; Valyuta və ixrac nəzarəti üzrə federal xidmət; Federal hakimiyyət orqanlarının nəzarət-təftiş xidmətləri.

Rusiyada dövlətin həyata keçirdiyi maliyyə nəzarəti siyasəti sosial inteqrasiya meyarlarını önə çəkməyi nəzərdə tutur (7, 331-337). “Rusiya Federasiyası Hesablama Palatası haqqında” Qanuna müvafiq olaraq, RF Hesablama Palatasının vəzifələrinə aşağıdakılar aid edilmişdir: federal büdcənin gəlir və xərc maddələrinin vaxtında icrasına nəzarətin təşkili və həyata keçirilməsi; federal büdcədənkənar fondların həcm, struktur və təyinatı üzrə icrasına nəzarətin təşkili və həyata keçirilməsi; dövlət vəsaitlərinin xərclənməsi və federal mülkiyyətdən istifadənin səmərəliliyi və məqsədyönlüyünün müəyyənləşdirilməsi; federal büdcə layihələrinin və federal büdcədənkənar fondların gəlir və xərc maddələrinin əsaslandırılma dərəcəsinin qiymətləndirilməsi; federal qanunların və dövlət hakimiyyətinin federal orqanlarının büdcədən maliyyələşdirilən xərclərini nəzərdə tutan normativ-hüquqi aktların layihələrinin maliyyə ekspertizası; federal büdcənin və federal büdcədənkənar fondların təyin edilmiş göstəricilərinin təhlili, onların aradan qaldırılmasına və həmçinin, bütövlükdə büdcə prosesinin təkmilləşdirilməsinə yönəldilmiş təkliflərin hazırlanması; federal büdcə vəsaitlərinin və RF Mərkəzi Bankında və digər müvafiq banklarda olan federal büdcədənkənar fondların vəsaitlərinin hərəkətinin qanuniliyinə və vaxtında həyata keçirilməsinə nəzarət; federal büdcənin icrası gedişi və həyata keçirilən nəzarət tədbirlərinin nəticələri barədə Federasiya Şurasına və Dövlət Dumasına müntəzəm informasiya verilməsi.

**Maliyyə nəzarətinin institusional təminatı və səmərəlilik**

Maliyyə nəzarətinin institusional təminatı postsovet məkanı ölkələrində tədricən təkmilləşir [8, s. 90-95]. Rusiya Federasiyası Maliyyə Nazirliyi barədə əsasnaməyə müvafiq olaraq bu nazirliyə dövlət maliyyə nəzarəti istiqamətində aşağıdakı əsas funksiyalar həvalə edilmişdir: federal büdcə vəsaitlərinin məqsədli istifadəsinə nəzarət; federal mülkiyyətdə olan əmlakdan əldə edilən gəlirlərə nəzarət qaydasının işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək; öz səlahiyyətləri daxilində federal büdcə vəsaitlərinin daxilolma və xərclənməsinin kompleks təftişi və tematik yoxlanışını həyata keçirmək; dövlət büdcədənkənar fondlarının və digər federal vəsaitlərin səmərəli və məqsədli istifadəsinə nəzarət; Rusiya Federasiyası subyektlərinin dövlət hakimiyyəti orqanlarının və yerli idarəetmə orqanlarının müraciətləri əsasında müvafiq təşkilatlarda təftiş və maliyyə yoxlamalarının təşkil olunması.

Nəzarət tədbirlərinin gedişi və onların nəticələrinin ictimailəşdirilməsi mühüm əhəmiyyətli məsələdir [9, s. 4]. Maliyyə nəzarətində mühüm mövqeyə malik olan auditin beynəlxalq təcrübəsi postsovet ölkələr üçün mühüm əhəmiyyətə malikdir. Bu baxımdan vergi auditi xüsusilə diqqətəlayiqdir.

ABŞ-da vergilərin ödənilməsi üzərində nəzarət prosesi, təbii ki, əməktutumlu və xüsusi hazırlıq tələb edən işdir. Bu ölkənin Daxili Gəlirlər İdarəsi (DGI) mərkəzi aparatdan, 7 regional və 57 dairə vergi idarəsindən ibarətdir. Sözügedən idarənin regional və rayon şöbələri vergilərin vaxtında daxil olması, vergi bəyannamələrinin düzgün doldurulması üzərində nəzarəti həyata keçirir, vergi borclarının alınması, artıq ödənilmiş məbləğlərin tədiyyəçiyə qaytarılması, tədiyyəçilərdən vergilərin alınması kimi məsələləri həll edirlər. ABŞ-da DGI tədiyyəçilər tərəfindən vergi qanunvericiliyinə əməl olunması üçün məsuliyyət daşıyır. Bu qurum federal vergi qanunvericiliyinin tətbiq edilməsi üzrə materialları və göstərişləri işləyib hazırlayır, vergi məcəlləsinin düzgün tətbiq edilməsi üzəridə nəzarəti həyata keçirir, vergiləri toplayır, yoxlamalar aparır və s.

ABŞ-da ştatlar və bələdiyyələr tərəfindən yığılan vergilərin ödənilməsi üzərində nəzarət yerlərdə həyata keçirilir. Nəzarətin növü tədiyyəçinin hansı kateqoriyaya aid olmasından asılıdır. Korporasiya müəyyən edilmiş müddətdə ödənilməli olan vergi məbləğinin 90%-ni ödəməmişdirsə, ona qarşı cərimə tətbiq edilə bilər. Gəlirlər üzrə bəyannamənin təqdimedilmə müddəti uzadıla bilər. Bunun üçün korporasiya əvvəlcədən müvafiq sorğu ilə vergi orqanına müraciət etməlidir. Qeyd edək ki, bəyannamənin təqdim edilmə müddətinin uzadılması verginin ödənilmə vaxtının dəyişdirilməsi demək deyildir. Vergi vaxtında ödənilmədikcə tədiyyəçidən faiz tutulur.

Vergilərin ödənilməsi, ümumiyyətlə, vergi sistemi üzərində nəzarət vergilərin tədiyyəçinin özü tərəfindən hesablanıb ödənilməsi prinsipinə əsaslanır. ABŞ-da korporasiyalar vergi məbləğlərini qanunda nəzərdə tutulmuş güzəştləri nəzərə almaqla özləri hesablayır və bəyannaməni tərtib edirlər. Korporasiya yoxlamanın nəticələri ilə razı deyilsə, bu məsələnin DGİ-nin xüsusi bölməsində yenidən müzakirəsini tələb edə və yaxud məhkəməyə müraciət edə bilər. ABŞ-da fəaliyyətinin son üç ilində vergiyə cəlb edilən gəliri 1 milyon dollardan artıq olan iri korporasiyalar daha ciddi maliyyə nəzarətinə məruz qalırlar. Bu korporasiyalar vergi tədiyyələrini (avans vergi məbləğləri də daxil olmaqla) Federal Ehtiyat Sisteminin üzvü olan bankda və ya digər kommersiya bankında depozit hesaba köçürürlər. Yoxlama zamanı bütün vergi bəyannamələri hesablamanın düzgünlüyü baxımından nəzərdən keçirilir. Sonradan daha dərin yoxlama aparmaq üçün onların bir qismi təsadüfi seçmə yolu ilə ayrılır.

Vergi sisteminin yüksək təşkili səviyyəsi və vergilərin ödənilməsi üzərində nəzarət işinin səmərəliliyi ilə fərqlənən Fransada Baş Vergi idarəsi (BVI) vergi siyasətini həyata keçirməklə yanaşı, vergi yığılması prosesinə nəzarət edir. BVİ-nin əsas funksiyalarından biri dövlət mülkiyyətinin, dövlətə və dövlət orqanlarına məxsus olan əmlakın idarə edilməsi üzərində nəzarətdir. Fransada BVI büdcə maliyyələşməsi səviyyəsi və əhəmiyyətinə görə İqtisadiyyat, Maliyyə və Büdcə Nazirliyinin aparıcı bölməsi hesab olunur. Mərkəzi və yerli vergi xidməti bölmələrində işləyənlərin əksəriyyətini vergi müfəttişləri və nəzarətçilər təşkil edir. Müfəttiş və nəzarətçilərin funksiyaları zaman keçdikcə dəyişikliklərə məruz qalmışdır. Vergi müfəttişləri vergitutma bazasının hesablanması xidmətinə və vergi müfəttişliklərinə, nəzarətçilər isə nəzarət xidmətinə və vergi mərkəzlərinə tabedir. Bir qayda olaraq, nəzarətçilər təqdim olunan məlumatların düzgünlüyünə nəzarət edir, müəssisələrdə və firmalarda maliyyə və mühasibat nəzarətinin həyata keçirilməsində iştirak edirlər. Rəqəmsal mühitdə baş verən dəyişikliklər tədricən maliyyə sisteminin əsas kəmiyyət parametrlərinə nüfuz etməkdədir.

Nəzarət işlərinin səmərəliliyi xeyli dərəcədə lazımi məlumatları toplayan və ümumiləşdirən xidmət bölmələrinin fəaliyyətindən asılıdır. Məlumatların yığılması vəzifəsi təkcə nəzarətçilərə deyil, həmçinin vergi xidmətinin bütün əməkdaşlarına həvalə olunmuşdur. Nəzarətin əsas prinsipləri üzrə Lima bəyannaməsi Perunun paytaxtı Lima şəhərində 1977-ci ildə keçirilən ali nəzarət orqanlarının Beynəlxalq təşkilatının (INTOSAI) IX konqresində qəbul edilmişdir.

Maliyyə sisteminə dövlət nəzrətinin çatışmayan cəhətləri, son illər tədqiqatçıların diqqətini cəlb edir (10). Həmin nöqsanlara, ilk növbədə aşağıdakılar aid edilə bilər: normativ-hüquqi bazadakı boşluqlar, nəzarət səlahiyyətlərinin kifayət etməməsi və ya birmənalı olmayan səlahiyyət bölgüsü, nəzarətedici orqanlarda funksiyaların təkrarlanması, onlar arasında qarşılıqlı fəaliyyətin koordinasiya edilməməsi və s. Son dövrlərdə dövlətin maliyyə nəzarətinin təkmilləşdirilməsində rəqəmsal texnologiyaların roluna önəm verilir. Bununla belə, hələ ki, vahid verilənlər bazası arzuedilən səviyyədə deyildir.

## *Nəticə*

Maliyyə təhlükəsizliyinin təmin edilməsi - ənənəvi ixrac sahələri ilə yanaşı, qeyri-ənənəvi sahələrin də pul vəsaitləri ilə təminatındakı çətinliklərin aradan qaldırılması, pul-kredit və maliyyə alətlərinin öz aralarında lazımi səviyyədə koordinasiya edilməsi kimi problemlərin həllini tələb edir. İnkişaf səviyyəsindən asılı olaraq bu və ya digər ölkənin maliyyə nəzarəti sistemində baş verən dəyişikliklər, özünü ilk növbədə institusional təminatın səmərəliliyi səviyyəsi ilə şərtlənir. Rəqəmsal mühitdə də maliyyə nəzarəti işlərinin səmərəliliyi verilənlərin toplanması və işlənməsi vəziyyəti ilə bilavasitə əlaqədardır.

İqtisadi və maliyyə təhlükəsizliyinin artan tələbləri şəraitində maliyyə nəzarətinin təşkilati problemləri kimi - nəzarət səlahiyyətlərinin birmənalı olmayan bölgüsü, nəzarətedici orqanlarda funksiyaların təkrarlanması kimi problemlər aradan qaldırılmalıdır.

## ƏDƏBİYYAT

1. Samedzade Z.A. Gtapı bolğşoqo puti. Baku, Nurlan, 2004, 936s.
2. İzahlı iqtisadi terminlər luğəti. II hissə. Bakı, Nurlan, 2005, 546s.
3. Кейнс Дж. М. Общая теория занятости, процента и денег. Изд. МГУ , 2020, 490 с.
4. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə-büdcə parametrlərinin tənzimlənməsi. Bakı, Elm, 2007, 448s.
5. Rathiranee Yogendrarajah. Financial Control and its' impact on Organizationalm performance - An empirical study of J/Municipal Council, Conference: International Symposium at SaiRam Institute, India. - 2011// https://www.researchgate.net/publication/259150937
6. Минаскин С. А. Современные проблемы финансового контроля за исполнением государственного бюджета // Современные инновации №4(6) / ВЫ Международная научно-практическая конференция «Современные инновации: фундаментальные и прикладные исследования» - 17 апреля 2016// https://scienceproblems.ru
7. Махотина, А.Р. 2020. Актуальные вопросы государственного финансового контроля в Российской Федерации. Социальная интеграция и развитие этнокультур в евразийском пространстве. 1, 9 (май 2020), 331-337
8. Сафонова Е.А. Проблемы финансового контроля: практический и теоретический аспекты // Экономика и бизнес: теория и практика. 2017. Т. 2. №4, ъ. 90-95
9. Прокофьев С.Е. Новации в сфере государственного финансового контроля, осуществляемого Казначейством России // Финансы и кредит. 2015. №10, ъ. 2-11
10. Nick Sorenson. What are Internal Control Weaknesses (2021)// https:// pathlock. com/learn/4-types-of-internal-controls-weaknesses-and-5-ways-to-fix-them

***Элмира Али кызы Балаева***
***к.э.н. доц.***
***Керим Курбан оглы Курбанов***
***магистр***

## Организационные аспекты улучшения финансового контроля: анализ безопасности и практики

***Резюме***

**Цель исследования** - изучить различные аспекты финансового контроля хозяйственной деятельности с точки-зрения экономической безопасности, изучить организационные аспекты формирования и развития этого контроля, оценить опыт зарубежных стран.

**Методология исследования** - сравнительный анализ, синтез, логическое обобщение.

**Результаты исследования** - выявлены возможности эффективной организации финансового контроля с точки зрения экономической безопасности и определены пути их реализации.

**Практическая значимость исследования** - полученные результаты могут быть использованы для обоснования приоритетов финансового контроля с точки зрения экономической безопасности, для разработки мер контроля за использованием финансовых ресурсов.

**Оригинальность и научная новизна исследования** - кратко описаны организационные аспекты управления системой финансового контроля с точки зрения экономической безопасности, оценена возможность применения в местных условиях передового опыта.

***Ключевые слова: экономическая безопасность, финансовый контроль, организационный аспект, сравнение, зарубежный опыт, эффективность, институциональная безопасность.***

***Elmira Ali Balayeva,***
***candidate of economic sciences, ass. prof;***
***Kerim Gurban Gurbanov***
***master***

**Organizational aspects of improving financial control: analysis of security and practices**

***Summary***

**The purpose of the study** is to study various aspects of financial control of economic activity from the point of view of economic security, to study the organizational aspects of the formation and development of this control, to evaluate the experience of foreign countries.

**Research methodology** - comparative analysis, synthesis, logical generalization.

**Results of the research** - the possibilities of effective organization of financial control from the point of view of economic security were revealed and the ways of their implementation were identified.

**Practical significance of the research** - the results obtained can be used to substantiate the priorities of financial control from the point of view of economic security, to develop measures to control the use of financial resources.

**Originality and scientific novelty of the research** - the organizational aspects of the management of the financial control system from the point of view of economic security are briefly described, the possibility of applying best practices in local conditions is assessed.

***Key words: economic security, financial control, organizational aspect, comparison, foreign experience, efficiency, institutional security.***